AZƏRBAYCAN RESPUBLUİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

*Əlyazması hüququnda*

HƏSƏNLİ AMAL RASİM OĞLU

# FUNKSİONAL MALİYYƏ KONSEPSİYASININ MAKROİQTİSADİ TƏNZİMLƏMƏDƏ TƏTBİQİ PROBLEMLƏRİ

**İxtisas: 5308.01 Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I - 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyatın tənzimlənməsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **Əvəz İslam oğlu Bayramov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru,professor **Mirələm Xası oğlu Həsənli**

iqtisad elmləri namizədi, baş elmi işçi **Əmirxan Mehralı oğlu Babaşov**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu

Müdafiə _20_ __05___ 2015-ci il tarixdə saat ___-da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad üzrə elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.051 - Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1001, Bakı şəhəri,İstiqlaliyyət küçəsi 6,
Azərbaycan Dövlət İqtisad Universiteti D02.051 Dissertasiya Şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ _____2015 -ci il tarixdə göndərilmişdir.

**D 02.051 Dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d. dosent M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. İqtisadi inkişafın müasir mərhələsində iqtisadi faktorların limit faydalılığının artırılması aktual vəzifəyə çevrilmişdir. Bunun əsas səbəbi dünya miqyasında iqtisadi inkişafın xarakterində, onun daşıyıcılarının strukturunda baş verən ciddi dəyişikliklərdir. Son dövrlərdə dünya təcrübəsində iqtisadi böhranların başvermə tezliyinin yüksəlməsi, ayrı-ayrı ölkələrdə iqtisadi böhranlarla mübarizənin xərcləri və nəticəliliyinin fərqliliyi göstərir ki, inkişafın dayanıqlığı səviyyəsi və böhrana qarşı mübarizənin səmərəliliyi, bütövlükdə iqtisadi proseslərin tənzimlənməsi və iqtisadi siyasətin xarakterindən asılıdır.

Maliyyə axınlarının effektiv idarəçiliyi, çağdaş Azərbaycan iqtisadiyyatının yüksələn dinamizmi, resurs təminatının proqressiv artımı, maliyyə və informasiya axınlarının strukturunun genişlənməsi ilə yanaşı, dövlət idarə etməsinin bazar münasibətləri şəraitində azalması ilə əlaqədar, xüsusilə aktuallaşmışdır. Mahiyyət etibarilə iqtisadi siyasətin müsbət nəticəsi kimi yaranmış şərait, ölkəmizdə maliyyə axınlarının idarəetmə taktikasının dəyərləndirilməsinin yeni metodologiyasının hazırlanmasını tələb edir.

Məlumdur ki, iqtisadi proseslərin dövlət kəsimində tənzimlənməsi, əhatəliliyinə görə kompleks xarakter daşımaqla, geniş areala malikdir. Bütövlükdə isə iqtisadi tənzimlənmənin metod və üsullar baxımından, nisbətən avtonom xarakterə malik sahələri fərqləndirilərkən ilk növbədə, iqtisadiyyatın real və maliyyə sektorları nəzərə alınır. Belə yanaşmada əsas məqam ondan ibarətdir ki, iqtisadiyyatın əsas funksional vəzifələri real sektorda həll edilir. Maliyyə sektoru isə real sektorun fəaliyyətinin zəruri və mühüm tamamlayıcısı və təminedicisi kimi çıxış edir. Maliyyə sektorunun fəaliyyətinin ayrılıqda müstəqil mexanizmlə tənzimlənməsi mümkün olsa da, ümumilikdə iqtisadi sistemin maraqları baxımından, maliyyə idarəetməsinin real sektorun tələblərinə adekvat təmin edilməsi zəruridir. Milli iqtisadiyyat çərçivəsində iqtisadi tənzimləmənin ən mühüm aləti büdcə siyasəti hesab edilir. Müasir dövrdə büdcə siyasətinin ölkədə təsərrüfatçılıq mühitinin formalaşmasındakı əhəmiyyətli mövqeyi, onun fiskal və monetar şəraitin xarakterinə təsirini, xeyli dərəcədə arıtırır. Qeyd olunanları nəzərə aldıqda dissertasiya işinin seçilmiş mövzusunun aktuallığı, əməli əhəmiyyəti aydın olur. Digər tərəfdən büdcə siyasəti məlum olduğu kimi ciddi nəzəri əsaslara malikdir. İqtisadi fikrin bütün inkişaf mərhələlərində, o cüm-

lədən iqtisadi idarəetmədə dövlətin rolunun artmağa başladığı dövrlərdən etibarən, büdcə siyasətinin nəzəri-metodoloji cəhətləri iqtisad elminin mühüm tədqiqat istiqamətlərindən biri olmuşdur. Mahiyyət etibarilə büdcə siyasətinin xarakteri, ayrı-ayrı ölkələrdə iqtisadi inkişaf və ya idarəetmə modellərinin fərqləndirilməsinin əsas arqumentinə çevirilmişdir. Sonuncu məqam Azərbaycanın da aid edildiyi böyük bir qrup, keçid dövrü yaşamış, hələ də bir sıra tranzitiv xüsusiyyətlərə malik ölkələr üçün daha da önəmlidir.

Dissertasiya işinin mövzusunun funksional maliyyə konsepsiyasının tətbiqi kimi seçilməsi qeyd edilən məqamlarla birbaşa bağlıdır. Məsələ ondadır ki, neoklassik keynsçilk və monetarizmin nəzəriyyələrinin hər biri fərqli üsullarla tənzimləmənin tərəfdarı olsa da, əslində hər ikisində arzu olunan inkişafa nail olunmasının əsas aləti kimi, əsasən, büdcə siyasəti qəbul edilir. "İnkişaf büdcəsi", "Nəticəyə hədəflənən büdcə", "Sosial büdcə", "İnvestiya yönümlü büdcə" və s. kimi adlanan fərqli büdcə siyasəti modelləri, mahiyyət etibarı ilə maliyyə resurslarının funksionallığının, onun real sektorun inkişafını dəstəkləməsi vəzifələrinin necə yerinə yetirilməsini xarakterizə edir. Maliyyə tənzimlənməsi istiqamətlərinin düzgün əlaqələndirilməsi resursların inkişafa daha güclü təsirini təmin edir və onların nəticəliliyini yüksəldir. Beləliklə, qeyd olunanlar kontekstində, dissertasiya işinin mövzusu mühüm elmi, əməli əhəmiyyət daşıyaraq, real aktuallığa malikdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dissertasiya işinin mövzusunun əhatə etdiyi məsələlər, iqtisad elmi və təcrübəsində geniş tədqiq edilmiş sahələr hesab edilir. Mövcud tədqiqat işlərini geniş spektrliyinə baxmayaraq neoklassik cərəyanın iki fundamental istiqaməti – keynsçilik və monetarist ideyalarına əsaslanan iki qrupa ayırmaq mümkündür. 1929-1933-cü illərdə baş vermiş böyük iqtisadi böhrandan sonra yaranan Keyns nəzəriyyəsi iqtisadiyyatın stabilliyinin avtomatik başverməsinin qeyri-mümkünlüyü mülahizəsinə əsaslanır. Keynsin fikrincə, dövlətin iqtisadi siyasətinin əsas vəzifəsi məcmu tələbin idarə edilməsi olmalıdır və bu zaman dövlət büdcəsi geniş təkrar istehsalın mühüm stabilləşdiricisi ola bilər. Keynsin bu mülahizəsi "tələb iqtisadiyyatı" anlayışını aktuallaşdırır.

Lakin, bu nəzəriyyə 70-ci illərdə yaranan böhranlar zamanı özünü doğrultmadığına görə, monetarizm cərəyanına əsaslanan "təklif iqtisadiyyatı" meydana gəldi. Yeni nəzəriyyənin tərəfdarları (M.Fridmen, H.Tallok, A.Laffer) hesab edir ki, təklif həmişə tələbi

üstələməlidir və ona görə də vergilərin azadılması, faiz dərəcəsi və pul kütləsi üzərində nəzarət vacibdir. Qeyd etmək lazımdır ki, "təklif iqtisadiyyatı" yanaşması da təcrübədə özünü tam dörultmadı və artıq XX əsrin sonlarına yaxın hər iki nəzəriyyənin müxtəlif kombinasiyalarının tətbiqi çoxalmağa başladı. Bu zaman iqtisadiyyatda dövlətin bilavasitə idarəetməsində olan "ictimai sektorun" dövlət maliyyəsinin idarəedilməsindəki ciddi təsirlərinə mühüm tənzimləyici vasitələr kimi baxılır. Beləliklə, ictimai sektorun fəliyyətinin səmərəliliyinin artırılması, vəsaitlərin istifadəsinə daha səmərəli yanaşmanın tətbiqi, o cümlədən büdcə prosesinin bütövlükdə təşkilinin təkmilləşdirilməsi vəzifəsi aktuallaşır. Büdcə proseslərinə belə yanaşma funksional maliyyə yanaşması və ya nəticəyə hədəflənmiş büdcə yanaşması hesab edilir.

Dünya təcrübəsində son illərdə bütövlükdə iqtisadi inkişafın sürətlənməsi, onun alət və vasitələrinin çoxalması ilə yanaşı, inkişafın əsas təmin edicilərinin müəyyənləşdirilməsi məsələsini çətinləşdirmişdir. Məsələn, son illərdə Azərbaycanda makroiqtisadi stabillik şəraitində müşahidə olunan yüksək və dayanaqlı iqtisadi artım, milli iqtisadiyyatın bütün səviyyələrində maliyyə axınlarının strukturunun və hərəkət dinamikasının mürəkkəbləşməsi ilə səciyyələnir. Maliyyə axınlarının intensivləşməsi ölkədə aparılan iqtisadi islahatların təsiri ilə yaranan nəzəri-metodoloji və idarəetmə problemlərinin geniş dairədə tədqiq edilməsinin zəruriliyini müəyyən edir.

Mövcud elmi ədəbiyyatın təhlili, real iqtisadi siyasət baxımından konkret iqtisadi sistemlərdə maliyyə axınlarının idarə olunması üzrə elmi tədqiqatların qeyri-qənaətbəxş olduğunu göstərir. Maliyyə proseslərinin tədqiqində adətən müxtəlif istiqamətlərin geniş spektri əks etdirilsə də, bütövlükdə maliyyə axınlarının idarə edilməsinə yanaşmalarda dar ixtisaslaşmanın yaratdığı məhdudluq özünü göstərir. Belə ki, müasir maliyyə proseslərinin bütün idarəetmə mühiti üçün fundamental keyfiyyət əlamətləri xüsusi tədqiq obyektinə çevrilmir.

Məlum olduğu kimi, büdcə vasitəsi ilə iqtisadiyyatın tənzimlənməsinə yanaşmalar müxtəlif nəzəri konsepsiyalara əsaslanır. Məsələn, təcrübədə daha geniş istifadə edilən "Neytral büdcə" konsepsiyası büdcə siyasətini bütövlükdə büdcənin balanslaşdırılmasına istiqamətləndirir və beləliklə, büdcənin geniş təkrar istehsal prosesinə neytral yanaşmanın zəruriliyini təsbit edir. Bu halda hesab edilir ki, maliyyənin normal idarə edilməsi, iqtisadiyyatın səmərəli fəaliyyətini təmin edir.

Başqa sözlə, büdcə xalis maliyyə məsələsinin həlli ilə - pul vəsaitlərinin toplanması və xərclənməsi ilə məşğul olur.

Keyns nəzəriyyəsi əsasında Dövlət büdcəsinin istifadə edilməsi isə, büdcə alətlərinin iqtisadiyyatın tənzimləyiciləri ola bilməsini aşkar edir. Belə yanaşma "funksional maliyyə" konsepsiyasına əsaslanır. Bu konsepsiyaya görə, büdcə siyasətinin formalaşdırılması və realizasiyası eyni zamanda həm maliyyə, həm də iqtisadi hədəflərə istiqamətlənə bilər və burada aparıcı iqtisadi hədəflər olmalıdır. Çünki, iqtisadi siyasətin əsas şərtləndirici amillərindən biri iqtisadiyyatın tarazlaşdırılmasıdır. Nəzərə almaq lazımdır ki, makroiqtisadi stabillik, büdcənin həm müsbət saldosu, həm də kəsri şəraitində baş verə bilər. Funksional maliyyə konsepsiyasına görə büdcə kəsrinin uzun müddət ərzində həlli iqtisadi stabillik məsələsinin əsaslı həlli olmadan mümkün deyildir. Büdcə siyasətinə "iqtisadi yanaşma" məhz bu məqamla bağlıdır.

İqtisadi inkişaf, o cümlədən onun maliyyə aspektləri ilə dünyanın və Azərbaycanın bir sıra tanınmış iqtisadçı alimləri məşğul olmuşlar. Müstəqillik dövrlərində bu sahədə aparılan, maraqlı monoqrafik tədqiqatları ilə xüsusi seçilən tanınmış Azərbaycan alimlərindən S.Səfərov, A.Musayev, Ş.Hacıyev, Ə.Əlirzayev, Ə.Muradov, M.Həsənli, M.Sadıqov, D.Bağırov, Z.Məmmədov, M.Bağırov, R.Əliyev, V.Novruzov, Ə.Ələkbərov, E.Rüstəmov, Ə.Bayramov, M.Əhmədov, N.İmanov, A,Şəkərəliyev, M.Meybullayaev, H.Allahverdiyev, R.Həsənov və başqalarının elmi əsərlərində ölkəmizin iqtisadi inkişafında maliyyə amilinin rolu fərqli prizmalardan ətraflı təhlil edilmişdir.

Qeyd olunan tədqiqatların hər biri özlüyündə mühüm elmi-əməli əhəmiyyət daşıyır və mövcud problemin həllinə maraqlı yanaşmalardır. Lakin, ayrı-ayrı ölkələrdə və inkişafın müxtəlif mərhələlərində iqtisadi şəraitin müxtəlifliyi və idarəetmənin fərqli metodlarının istifadə edildiyini nəzərə alaraq hesab edirik ki, bu problemin həllinə streotiplərlə yanaşmaq doğru olmaz. Başqa sözlə, hesab edirik ki, problemin həllinə, bütövlükdə müasir iqtisadi inkişafın xüsusiyyətləri, milli iqtisadi sistemin müasir strukturlaşma xüsusiyyətləri və dövlətin iqtisadi siyasətinin əsas meyillərinin birgə nəzərə alınması ilə yanaşılmalıdır. Dissertasiya işini, qeyd olunan tədqiqat işlərindən əsas fərqi fikrimizcə məhz belə məqamlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi-milli iqtisadiyyatın dövlət tənzimlənməsinin və iqtisadi siyasətin maliyyə vasitələrinin, ilk növbədə dövlət maliyyə axınları və dövlət

büdcəsinin, iqtisadi sistemin ümumi maraqları baxımından nəticəliyə təsirinin qiymətləndirilməsi və daha səmərəli istifadəsi imkanlarının müəyyənləşdirilməsidir.

Əsas məqsədə nail olumaq üçün aşağıdakı vəzifələrin yerinə yetrirlməsi nəzərdə tutulmuşdur:

- İqtisadiyyatın tənzimlənməsi və maliyyə resurslarının idarə edilməsinə nəzəri-metodoloji və təcrübi yanaşmaların qiymətləndirilməsi;
- Milli iqtisadi təhlükəsizliyin təminatı nöqteyi-nəzərindən makroiqtisadi tənzimləmənin adekvatlıq dərəcəsinin araşdırılması;
- Davamlı inkişaf şəraitində milli iqtisadi siyasətin vəzifə və hədəflərinin müəyyənləşdirilməsi;
- Azərbaycanda son dövrlərin büdcə siyasətinin əsas xüsusiyyətlərinin tədqiqi;
- Maliyyə axınlarının iqtisadi siyasətə təsirliliyinin artırılması istiqamətlərinin konkretləşdirilməsi;
- Funksional maliyyə konsepsiyasının mühüm elementi kimi, büdcə-vergi və monetar siyasətin əlaqələndirilməsi məsələlərinin araşdırılması;
- Müasir mərhələdə iqtisadi inkişafın sürətləndirilməsi baxımından makroiqtisadi tənzimləmənin vəzifələrinin müəyyənləşdirilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın nəzəri-metodoloji əsaslarını iqtisad elminin inkişaf və tənzimləmə məsələləri ilə bağlı mövcud nəzəriyyələri və müddəaları, o cümlədən qloballaşma şəraitində, dünyada maliyyə axınlarının çağdaş təcrübəsinin nəticələri, iqtisadçı alim və ekspertlərin müvafiq məsələlərlə bağlı tədqiqatları və qiymətləndirmələri, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, Respublika Prezidenti və Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamları, həmçinin müvafiq hüquqi- normativ sənədlər təşkil etmişdir. Dissertasiya işində iqtisadi təhlil, o cümlədən qruplaşdırma, sistemli təhlil, statistik qiymətləndirmələr, analtik ümumiləşdirmə, müqayisə və s. metod və üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Maliyyə, Vergilər, İqtisadiyyat və Sənaye nazirliklərinin, AR Mərkəzi Bankının rəsmi hesabatları və məlumatları, tədqiqatçı və ekspertlərin müvafiq qiymətləndirmələri təşkil etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini milli iqtisadiyyatın tənzimlənməsi məsələləri təşkil edir. Tədqiqatın

predmetini isə makroiqtisadi tənzimləmənin mühüm elementi kimi, maliyyə axınlarının idarə edilməsi, o cümlədən büdcə və monetar siyasət məsələləri təşkil edir.

**Tədqiqatın əsas elmi yenilikləri**. Aparılmış araşdırmaların nəticələrinə əsasən, dissertasiya işinin elmi yeniliklərini aşağıdakı kimi ifadə etmək olar:

- Problemə nəzəri-metodoloji baxışların müqayisəli təhlilinə əsaslanmaqla maliyyə axınları üzərində effektiv nəzarət-tənzimləmə mexanizminin konseptual müddəaları formalaşdırılmışdır;
- Funksional maliyyə konsepsiyasının müasir reallığa adekvatlıq dərəcəsi tədqiq olunmuş və tətbiqi imkanlarının konseptual ümumiləşdirmələri aparılmışdır;
- İqtisadi təhlükəsizlik və eləcə də inkişafın təhlükəsizliyi ilə maliyyə axınlarının effektivlik dərəcəsi arasında çox sıx qarşılıqlı bağlılığın olduğu aşkara çıxarılmış və problemə proqram-məqsədli yanaşmanın zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır;
- Dayanıqlı inkişafın uzunömürlüyünün təminatında neft strategiyasının önəmli rol oynamasına baxmayaraq, sistemyaratma prosesinin çoxölçülü müstəviyə keçirilməsinin qaçılmaz xarakter daşıdığı aşkara çıxarılmışdır;
- Qeyri-neft ÜDM-nin artımı ilə vergi gəlirlərinin artımı arasındakı əlaqənin zəifliyinin, eləcə də qeyri-neft sektorundan əldə edilən gəlirlərin büdcədəki xüsusi çəkisinin qeyri-adekvat olmasının büdcənin "qurulmuş stabilləşdirici" funksiyasının məhdudlaşdırılmasına, fiskal və monetar siyasət arasında optimal uyğunluğun formalaşması prosesinə əks-təsir göstərdiyi aşkarlanmışdır;
- Müəyyənləşdirilmişdir ki, davamlı inkişaf şəraitində milli iqtisadi siyasətin vəzifə və hədəfləri, həmçinin makroiqtisadi tənzimləmə vəzifələri iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından qiymətləndirilməlidir;
- Aşkar edilmişdir ki, fiskal siyasətin milli iqtisadiyyata təsiri yüksək olsa da onun kifayət qədər çevik olmaması iqtisadi siyasətdə monetar amillərin rolunu artırır. Mahiyyət etibarı ilə fiskal siyasətlə monetar siyasətin yaranmış şəraitə adekvat və çevik əlaqələndirilməməsi iqtisadi artım və makroiqtisadi tarazlıq baxımından mənfi nəticələrə gətirib çıxara bilər;

- Müəyyən olunmuşdur ki,fiskal və monetar siyasətlər arasında optimal uyğunluğa nail olunmasında institusional təminatın adekvatlıq dərəcəsi həlledici rol oynayır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Sürətli inkişaf dövrü yaşayan Azərbaycan iqtisadiyyatında inkişafın dayanıqlığının yüksəldilməsi baxımından büdcə-fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin mövcud çatışmazlıqlarının və səbəblərinin müəyyən olunması, nəzəri-metodoloji əhəmiyyəti ilə yanaşı, konkret iqtisadi siyasət üçün mühüm əməli tövsiyələr hesab edillir..

Aşkar edilmiş elmi yeniliklər, irəli sürülən tövsiyyələr və ümumiləşdirmələr, ciddi nəzəri əsaslara malik olduğu üçün, milli iqtisadi inkişafın keyfiyyətinin yüksəldilməsi və tətbiqi baxımından dissertasiya işi, Azərbaycan iqtisadiyyatının çağdaş inkişaf modelinin tədrisində mühüm elmi baza ola bilər.

**Aprobasiya və tədqiqatın nəticələrinin tətbiqi**. Dissertasiya işinin əsas nəticələri və irəli sürülmüş təklif və tövsiyələr beynəlxalq və respublika səviyyəli elmi-nəzəri və praktiki konfranslarda müzakirə olunmuşdur. Tədqiqatın əsas nəticələri Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlat ETİ tərəfindən əməli istifadə üçün qəbul edilmişdir (arayış №33/33-7/24,15.12.2014). Dissertasiya işinin məzmununu əhatə etdirən ümumi həcmi 4.5 ç.v. olan 12 məqalə və tezisi, (o cümlədən xaricdə) dərc olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, 9 paraqraf, nəticə və tövsiyələr və istifadə edilmiş ədəbiyyat siyahısı, 7 sxem, 13 cədvəldən və cəmi 170 səhifədən ibarətdir.

Tədqiqatın strukturu aşağıdakı kimidir:

Giriş

I fəsil. Makroiqtisadi tənzimləmə və maliyyə resurslarının idarə edilməsinin nəzəri – metodoloji əsasları

1.1. İqtisadi tənzimləməyə yanaşmaların mahiyyəti, xüsusiyyətləri və fərqləri

1.2. Maliyyə axınları və onların idarə olunması xüsusiyyətləri: meyarlar və nəticəlilik baxımından qiymətləndirmə

1.3. Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində makroiqtisadi tənzimləmə və maliyyə axınlarının idarə olunmasının vəzifələri

II fəsil. Müasir Azərbaycan iqtisadiyyatında maliyyə axınlarının identifikasiyası və təsnifatlaşdırılması

2.1. Azərbaycan iqtisadiyyatında davamlı inkişaf potensialının formalaşması xüsusiyyətləri
2.2. Maliyyə axınlarının idarə edilməsində rasionallıq meyarları və hədəflərinin seçimi
2.3. Büdcə siyasətində inkişaf, səmərəlilik və nəticəlilik məqsədlərinin uzlaşdırılması xüsusiyyətləri
III fəsil. Azərbaycanda funksional maliyyə konsepsiyasının tətbiqi vəzifələri və xüsusiyyətləri
3.1. Maliyyə axınlarının iqtisadi inkişafa təsirliyinin artırılması istiqamətləri
3.2. İqtisadi siyasətdə büdcə-vergi və monetar siyasətlərin əlaqələndirlməsi vəzifələri və mexanizmi
3.3. Makroiqtisadi tənzimləmə mexanizminin iqtisadi inkişafı sürətləndirməsi vəzifələri və perspektivləri
Nəticə və təkliflər
İstifadə edilmiş ədəbiyyat

## Dissertasiya işinin əsas məzmunu

### 1. İqtisadi tənzimləmə və maliyyə axınlarının idarə olunması xüsusiyyətləri .

İnsan cəmiyyətinin inkişafının müxtəlif mərhələlərində dövlətin iqtisadi proseslərdə iştirakı, "iqtisadi azadlıq və nizam" anlayışlarının mahiyyəti ilə xarakterizə olunur. Ənənəvi olaraq "iqtisadi azadlıq" insanın fəaliyyəti, "nizam" isə dövlətin fəaliyyəti ilə səsləşir.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimləməsi, özünün kompleksliliyi, miqyaslılığı, stabil xarakterliliyi və təsir üsullarının müxtəlifliliyi ilə səciyyələnir. Ona görə də hesab edilir ki, belə tənzimləmədə iqtisad elminin iştirakı olduqca vacibdir. İqtisadiyyatın dövlət tənzimləməsinin əsas aparıcı halqası iqtisadi siyasətdir. Dövlətin iqtisadiyyatda roluna ilk köklü yanaşma, Keynsin bazarın "səmərəli tələbi" təmin edə bilməməsi və bu məqsədlə dövlətin pul – kredit və büdcə siyasəti vasitəsilə stimullaşdırıcı fəaliyyətinin vacibliyi haqqındakı mülahizələri hesab edilir.

Müasir şəraitdə bütövlükdə dünyada, o cümlədən Azərbaycanda, maliyyənin ictimai təkrar istehsalda rolu, onun sosial-iqtisadi inkişafın gedişinə təsiri müqayisə edilməz dərəcədə yüksəlmişdir. İqtisadi islahatlar nəticəsində Azərbaycanda formalaşmış maliyyə sistemi, iqtisadiyyatın maliyyə fəaliyyətinin bütün cəhətlərini əhatə edir və özündə

büdcə və pul-kredit sistemlərini, müxtəlif mülkiyyət formalı təşkili-hüquqi işgüzar strukturların və qeyri-kommersiya ictimai birliklərin maliyyələrini ehtiva edir. Ölkənin vahid maliyyə sisteminin hər bir hissəsinin tərkibində, öz spesifikasına, xarakterik cəhətlərə malik fərqli maliyyə axınları mövcudddur.

Azərbaycan Respublikasının normativ hüquqi aktlarında "maliyyə axınları" anlayışı müəyyən olunmayıb və tədqiqatçılar tərəfindən müxtəlif anlamlarda şərh edilir. Predmeti baxımından, o makroiqtisadi tədqiqatlara aid edilə bilər. Maliyyə axınlarının idarəedilməsinin rasionallaşdırılması zərurətini şərh etmək üçün, bir sıra məsələlərin nəzərə alınması vacibdir. Məsələn, məlumdur ki, büdcənin tənzimləyici funksiyasının məzmunu büdcə prosesinin bütün mərhələlərində iqtisadi siyasətin həyata keçirilməsi zamanı reallaşır. Büdcə sistemində akkumilyasiya edilən maliyyə resursları sonradan dövlətin sosial və investisiya siyasətlərinə müvafiq olaraq prioritet əhəmiyyət kəsb edən maddi istehsal sferalarına və büdcə təminatında olan qeyri-maddi istehsal sferasına yenidən bölüşdürülür. Büdcənin tərtibi və icrası prosesində ölkə iqtisadiyyatının "ağrılı nöqtələri" aşkara çıxarılır və hökumət mərkəzləşdirilmiş maliyyə resurslarının hərəkət istiqamətlərinin korrektə edilməsi vasitəsi ilə iqtisadiyyatın bu və ya digər sferalarının, müxtəlif istehsal sahələrinin fəaliyyətinin aktivləşdirilməsinə təsir imkanı əldə edir.

Dünya təcrübəsində, ictimai maliyyənin idarə edilməsində ən çox yayılmış model maddəli büdcələşdirmə modelidir. Bu modelin mahiyyəti büdcə vəsaitlərinin maddələr üzrə məqsədli istifadəsindən ibarətdir. Lakin bu modelin müxtəlif ölkələrdə çoxillik istifadəsi təcrübəsi onun aşağı səmərəliliyini göstərir. Belə ki, bu yanaşma dövlət idarəetməsinin aşağı halqasında məsuliyyətin az olması və vəsaitlərin qənaət edilməsində maraqlı olmamasına gətirir. Ona görə də son illərdə təcrübədə büdcə quruculuğunun yeni modellərinə üstünlük verilməsinə başlanılmışdır. Bu baxımdan fikrimizcə, funksional maliyyə konsepsiyasına üstünlük verilən "nəticəyə hədəflənən büdcə" (NHB) modeli daha səmərəli yanaşma kimi qəbul edilməlidir.

Maddəli büdcələşdirmə modeli ilə müqayisədə NHB modelləri, ölkənin iqtisadi inkişafının dəstəklənməsi və dövlətin milli maraqlarının daha dolğun təmin edilməsinə yönəlmiş iqtisadi siyasətinin səmərəliliyinin artırılması üçün olduqca əlverişli hesab edilə bilər.

Beləliklə, maliyyə resurslarını müstəqil iqtisadi kateqoriyaya və idarəetmə obyektinə ayırmağa imkan yaradan *xarakterik cəhətləri,* bizim fikrimizcə, aşağıdakılardır:

✧ Maliyyə axınları - maliyyə resursların hərəkətinin qanunauyğunluqlarını əks etdirir və iqtisadiyyatın müxtəlif sferalarında maliyyə hərəkətlərinin çoxsaylı eyni növlü hadisələrinin ümumiləşdirilmiş göstəricisi olan fundamental anlayışdır.

✧ Maliyyə axınları, istehsal, bölgü və yenidən bölgü proseslərində, resursların, mallar və xidmətlərin hərəkətində, təsərrüfat subyektləri, dövlət orqanları, ev təsərrüfatları və ictimai təşkilatların daimi, qarşılıqlı davamlı əlaqələrinin göstəricisi kimi xidmət göstərir.

✧ Maliyyə axınları, dövlət aparatının, təsərrüfat strukturlarının, əhalinin həyat fəaliyyətinin müntəzəmliyini təmin edərək, iqtisadi bazislə sıx əlaqədədir; müxtəlif sahibkarlıq formaları, mal və xidmətlərin istehsalçılar və istehlakçılar arasında mübadiləsində zəruri bir halqadır.

✧ Maliyyə axınları, kapitalın fəaliyyəti daha yüksək miqyas alan, maliyyə bazarı, bank və sığorta strukturlarının fəaliyyətinin daha da genişləndirilməsinə xidmət edir.

✧ Maliyyə resurslarının idarəolunma mexanizmində iqtisadi yüksəlişin, sosial problemlərin həllinin mühüm ehtiyatları əks olunur, ona görə də, maliyyə resurslarının effektivliyinin yüksəlməsi, onların hərəkətlərinin təkmilləşdirilməsi, ölkə iqtisadiyyatının səmərəliliyinin artırılmasının mühüm istiqamətidir.

## 2. İqtisadi təhlükəsizliyin təmin edilməsi vəzifələri və milli iqtisadiyyatın davamlı inkişaf potensialı

İqtisadi təhlükəsizlik məsələləri müasir iqtisadi siyasətin demək olar ki, bütün istiqamətlərini əhatə edir. İqtisadi təhlükəsizlik iqtisadiyyatın tənzimlənməsi və maliyyə resurslarının idarə edilməsi vəzifələrini ehtiva etməklə yanaşı, onların qarşısında ənənəvi yanaşmalardan fərqli vəzifələr qoyur. Yeni şəraitdə əsas vəzifə iqtisadi siyasət tədbirlərinin, inkişafın bütövlükdə dinamikliyi, ölkələrin iqtisadi açıqlığının yüksəlməsi və iqtisadi münasibətlərin xarakterində baş verən dəyişikliklərin nəzərə alınması ilə təmin edilməsidir. İqtisadi təhlükəsizliyin yeni şəraitdə mahiyyəti baxımından, məsələn, real sektorun fəaliyyətinin arzu olunan səmərəliliyinin təmin edilməsi üçün ilk növbədə milli iqtisadiyyatın orta və uzunmüddətli inkişaf hədəflərin müəyyənləşdirilməsi vacibdir. Hesab edirik ki, bu baxımdan müasir dünya təcrübəsi əsas götürülə bilər.Araşdırmalar göstərir ki, inkişaf etmiş və

sürətlə inkişaf edən ölkələrdə iqtisadi siyasətin formalaşmasında orta və uzunmüddətli inkişaf strategiyalarının hazırlanması geniş yayılmışdır. Azərbaycan Respublikasında da bu məsələ son illərin təcrübəsində yetərincə aktualllaşmışdır. Məsələn, 2014-cü ildə artıq 3-cü Dövlət regional inkişaf proqramı qəbul edilmişdir. Çoxlu sayda sahəvi və funksional xarakterli digər proqramlar qəbul edilmişdir. Bu proqramların genişliyinə görə hesab edirik ki, məqsəd və hədəflərinin dəqiqliyi və sistemliliyi ilə seçilən, 2012-ci ildə qəbul edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış konsepsiyası" iqtisadi inkişafın davamlılığı və təhlükəsizliyi baxımından xüsusi ilə önəmlidir.

Azərbaycan iqtisadiyyatının müstəqilliyi və bazar iqtisadiyyatı şəraitində fəaliyyəti dövrünün əslində çox kiçik olduğunu nəzərə alsaq, ölkəmizdə real sektorun səmərəli strukturunun formalaşmasının başa çatmadığını və ona görə də sistemli islahatların həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyədə davam etdirilməsi zərurətini qeyd etmək lazımdır. Məsələn, dissertasiya işinin tədqiqatları çərçivəsində müəyyənləşdirilmişdir ki, ölkədə məcmu tələbin strukturunun formalaşdırılmasında dövlət xərclərinin əhəmiyyəti həlledicidir. Bu, bir tərəfdən müsbət dəyərləndirilə bilər və dövlətin iqtisadi inkişafı sürətləndirmə cəhdi kimi qəbul edilə bilər. Lakin eyni zamanda hesab edirik ki, struktur siyasəti daxilində, indiki mərhələdə Azərbaycanda yığımın stimullaşdırılması siyasətinin aparılması, yığımın investisiyaya çevrilməsinin təşviqi, ixracın şaxələndirilməsi və s. kimi tədbirlərin hesabına, məcmu tələbin formalaşdırılmasında ümumi daxili məhsulun 85 faizini verən qeyri-dövlət sektorunun adekvat rolunun təmin edilməsi vacibdir. İqtisadi təhlükəsizliyin maliyyə aspektindən təmin edilməsi vəzifəsi isə əslində son dövrlərdə aktuallaşmışdır. Belə ki, dövlətin tənzimləyici rolunun yüksəlməsi onun sərəncamında olan maliyyə resurslarının həcminin mütləq artımına və cəmiyyətin pul vəsaitlərinin məcmu məbləğində dövlətin payının nisbi artımına gətirmişdir. Məsələn, XX-ci əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə dövlət maliyyəsi vasitəsilə milli gəlirin 9-18%-i yenidən bölüşdürülürdüsə, artıq 60-70-ci illərdən başlayaraq bu 50% və daha artıq təşkil etməyə başlamışdır. Maliyyənin inkişafında yeni məqamlar elmi-texniki inqilab, iqtisadiyyatın qeyri-bazar sektorunun genişlənməsi, istehsalın beynəlmiləlləşməsinin güclənməsi və dövlətin iqtisadiyyata təsirinin artması ilə şərtlənir. Beləliklə, yeni şəraitdə maliyyə dövlətin iqtisadi təhlükəsizliyinin real tərkib elementinə çevrilir.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanda son illərdə maliyyə təhlükəsizliyinin təmin edilməsi bütövlükdə qənaətbəxş hesab edilə bilər. Sonuncu dünya maliyyə böhranını təsiri ilə bağlı yuxarıda deyilənlər bu fikrin ən yaxşı sübutu ola bilər. Lakin nəzərə almaq vacibdir ki, maliyyə prosesləri çox böyük həssaslığa malikdir və indiki iqtisadi açıqlıq şəraitində onun ətraf dünyadan və iqtisadiyyatın digər sektorlarından qapalı saxlamaq uzun müddət ərzində həm mümkün deyildir, həm də bu iqtisadi mahiyyət baxımından arzu olunan deyildir. Düzgün yol, ölkənin maliyyə təhlükəsizliyinin düşünülmüş strategiya və önləyici tədbirlərlə qarşısının alınması ola bilər.

Beləliklə, milli iqtisadi təhlükəsizliyin təmin edilməsində həm makroiqtisadi tənzimləmə, həm də maliyyə axınlarının idarə edilməsi vəzifələri olduqca vacibdir. Əsas məsələ isə, bu iki nisbi fəaliyyət müstəqilliyinə və siyasət alətlərinə malik olan iqtisadi siyasət istiqamətləri qarşı-qarşıya qoyulmamalı, əksinə onların bir-birini tamamlaması diqqət mərkəzində saxlanılmalıdır. Müasir dövrdə davamlı və dayanıqlı inkişafın təmin edilməsinin əsas çağırışları bunu tələb edir.

Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişaf potensialını qiymətləndirmək məqsədi ilə dissertasiya işində, ölkəmizin müstəqillik dövründəki iqtisadi inkişaf yolunun yuxarıda şərh olunmuş meyarlar baxımından dəyərləndirilməsi həyata keçirilmişdir. Müstəqillik dövründə Azərbaycanın iqtisadi inkişaf yolunu üç əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1994-cü illəri əhatə edən xaos və ya tənəzzül dövrü; ikincisi, 1995-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitliyin yaranması və iqtisadi yüksəliş dövrü və 2004-cü ildən başlayan dinamik iqtisadi inkişaf dövrü.

Müstəqil Azərbaycan iqtisadiyyatının 2004-cü ildən başlayan dinamik inkişaf mərhələsi, əvvəlki on ildə qazanılmış fundament üzərində reallaşmaqla bir neçə mühüm faktorla şərtləndirilə bilər. Belə faktorların bir neft gəliri dövrünün başlanılması, iqtisadi siyasətdə dövlətin tənzimləyici rolunun bazarın aktivliyinin daha ciddi dəstəklənməsi formasında artması, sosial inkişafa dövlət qayğısının güclənməsi, infrastrukturun modernləşdirilməsində dövlətin fəal iştirakı və s. aid edilə bilər. Azərbaycanda son illərdə əsas kapitala investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün daxili mənbələrin artması investisiyanın ümumi həcmində xarici investisiyanın payının azalmasına səbəb olmuşdur. Məsələn,1994-2005-ci illərdə xarici investisiyalar ümumi inves-

tisiyaların 60- 70 %-ni təşkil edirdisə, artıq 2008-ci ildə bu 22%-ə qədər azalmış, 2013-cü ildə isə 23% təşkil etmişdir.

Son 10 ildəki iqtisadi inkişafımızın mühüm şərtləndirici elementlərindən biri ölkədə inkişaf mərhələlərinin hər birinə adekvat maliyyə-büdcə siyasətinin aparılması hesab edilə bilər. Maliyyə axınlarının güclənməsi və davamlı iqtisadi artım şəraitində, dövlət büdcəsinin iqtisadi fəaliyyətdə rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Dövlət büdcəsi daxili bazarda iqtisadi fəallığın artırılması, iqtisadiyyata dünya bazarı konyunkturasının zərərli təsirlərinin kompensasiya edilməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması və s. kimi məqsədlərə hədəflənərək çox vacib tənzimləyici və stimullaşdırıcı elementə çevirilmişdir. Büdcənin formalaşdırılması və realizasiyası iqtisadi həyatın bütün sahələrində sistem yaradıcı halqaya çevirilməklə, liberal bazar münasibətləri şəraitində dövlətin iqtisadi rolunun uğurlu transformasiyasını şərtləndirmişdir.

Azərbaycan iqtisadiyyatının inkişaf göstəriciləri son illərdə mütəmadi olaraq, beynəlxalq qurumlar tərəfindən də müsbət qiymətləndirilir. Dünya İqtisadi Forumu tərəfindən 2014-2015-ci illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan dünyada 38-ci olmaqla, MDB ölkələri arasında birinci, makroiqtisadi sabitlik altindeksi üzrə isə 14 pillə irəliləyərək 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır.

Beləliklə, yuxarıda qeyd olunanları ümumiləşdirsək, Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafın təmin olunması üçün yetərli resurs potensialına malik olmasını deyə bilərik. Fikrimizcə indi iqtisadi siyasətin mühüm vəzifəsi, yaradılmış bazanın yeni şəraitin tələbləri baxımından düzgün istiqamətləndirilməsi olmalıdır. Belə olduqda iqtisadi sistemin "özünü inkişaf" qabiliyyətinin təmin edilməsi və rəqabətə davamlı Azərbaycan iqtisadiyyatının formalaşdırılması mümkün olacaqdır.

## 3. Maliyyə axınlarının idarə edilməsinin rasionallığı

Maliyyə axınlarının tənzimləmə mexanizminin qiymətləndirilməsi üçün dissertasiya işində, Azərbaycan iqtisadiyyatında axınların identifikasiyası və əsas əlamətlərinin müəyyənləşdirilməsi aparılmışdır. İqtisadi ədəbiyyatda maliyyə axınlarının iyirmiyə yaxın müxtəlif təsnifat əlamətləri mövcuddur. Azərbaycanda dövlət maliyyəsinin əsas axınlarının tərkibi sxem 1-də verilmişdir.

Azərbaycanın bank sisteminin fəaliyyəti son illərdə ciddi şəkildə güclənmişdir. Son qlobal böhran zamanı dünya maliyyə sistemində baş verən mənfi təsirlər fonunda ölkədə pul-kredit sistemində müşahidə edilən dayanıqlıq, düzgün və çevik inflyasiya hədəflənməsi sayəsində qorunan makroiqtisadi stabillik milli bank sistemimizin ümumən uğurlu fəaliyyətinin göstəriciləridir. Lakin bununla bərabər, bank sisteminin bazar prinsiplərinə və dünya təcrübəsinə müvafiq təkmil strukturunun və fəaliyyət strategiyasının olmasını fikrimizcə söyləmək olmaz. Ən azı Mərkəzi Bankın müəyyənləşdirdiyi, çevik xarakterli faiz dəhlizinin mövcudluğuna görə kommersiya banklarının apardığı bahalı kredit siyasətinin illərlə davam etməsi, problemli bank kreditlərinin çoxluğu və s. deyilənlərin sübutu hesab edilə bilər. İqtisadiyyata kredit qoyuluşları – bankların, kredit ittifaqlarının və digər qeyri-bank maliyyə və kredit təşkilatlarının, eləcə də dövlətin müvafiq qurumları, o cümlədən Dövlət Sahibkarlığa Kömək Milli Fondu, eləcə də Dövlət İnvestisiya Şirkətinin vəsaitləri hesabına borcalanlara istehsal və dövriyyə sferalarında dövriyyə və əsas kapitalların formalaşması və artırılması məqsədilə istifadə etmək üçün pul vəsaitlərini, onların qaytarılması şərtilə təqdim etməsi prosesində yaranan iqtisadi münasibətlər mənasını daşıyır. Bu münasibətlər pul axınlarının bankdan ssuda alana və əksinə hərəkətini ehtimal edir. İqtisadiyyata kredit qoyuluşları ilə bağlı mühüm meyilləri qiymətləndirərkən aşağıdakı xüsusiyyətləri qeyd etmək olar: 2005-2013-cü illər ərzində kredit qoyuluşları təxminən 10.7 dəfə artmış və 15 mlrd manatı üstələmişdir; Kredit qoyuluşlarının strukturunda 2007-ci ildən başlayaraq, milli valyuta ilə verilən kreditlər üstünlük təşkil etməyə başlamış (53,7%), 2012-2013- cü illərdə isə bu artıq 70% -dən çox hissəni təşkil etmişdir; Xarici valyuta ilə kreditlərin strukturunda 2006-cı ildən uzunmüddətli kreditlər üstünlük təşkil edir – 2005-ci ildəki 37,6%-n 2013-cü ildə 76%-ə çatmışdır (sxem 1).

Ölkədə həyata keçirilən dinamik sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də valyuta ehtiyatlarının artırılması olmuşdur. Uğurlu neft strategiyası valyuta ehtiyatlarının sürətlə artımını şərtləndirmişdir. Aparılan məqsədyönlü siyasət nəticəsində 1995-ci ilin əvvəlinə cəmi 68 mln.dollar təşkil edən valyuta ehtiyatları, 2014-cü ilin sonuna 50 mlrd. dolları ötmüşdür. Azərbaycan Dövlət Neft Fondunun yaradılması, onun vəsaitlərindən istifadə ilə bağlı strategiyanın seçimi bütövlükdə strateji valyuta ehtiyatlarının artmasındakı irəliləyişlər Azərbaycanın yeni inkişaf mərhələsinə çıxmasını təmin etmişdir. Araş-

dırmalar göstərir ki, fond yaranan gündən 2013-cü ilin sonuna qədər fonda daxil olunmuş vəsait 85 mlrd dollar təşkil etmişdir.

Bu vəsaitin 55 mlrd dolları dövlət büdcəsinə trasfer olunmuşı və 8.4 mlrd.dolları isə ölkədaxili investisiya lahiyələrinə xərclənməsi nəticəsində 2013-cü ilin əvvəlinə fondda cəmləşmiş vəsaitin həcmi 35,9 mlrd dollar təşkil etmişdir.

Sxem 1. **Dövlət maliyyəsinin strukturu**



Qeyd etmək lazımdır ki, Dövlət Neft Fondunun aktivləri neft ixracı ilə bağlı daxil olan vəsaitlərlə yanaşı, neft bonusu, ixrac boru kəmərləri ilə tranzit daşımaları, mövcud aktivlərin idarə edilməsi ilə bağlı gəlirlər və digər daxilolmalar hesabına formalaşır. Yalnız son 5 ildə Dövlət Neft Fondunun sərəncamında olan valyuta aktivlərinin idarə edilməsindən 2 mlrd. dollar məbləğində gəlir əldə olunmuşdur.

Ölkənin strateji valyuta ehtiyatlarının mövcud həcminin formalaşmasında Mərkəzi Bankın sərəncamında olan valyuta ehtiyatlarının dinamik olaraq artması mühüm amillərdən biri olmuşdur. 2006-cı ilin 01 yanvar tarixinə 1,2 mlrd dollar səviyyəsində olan valyuta ehtiyatlarının həcmi 2015-ci ilin 01 yanvar tarixinə 10 dəfədən cox artaraq 13.8 mlrd dollara çatmışdır. Araşdırmalar göstərir ki, böhranın təsirlərinin gücləndiyi şəraitdə AMB-nin pul-kredit siyasətinin əsas məqsədləri maliyyə sisteminin likvid resuslarla təmin edilməsi, məcmu təklifin dəstəklənməsi, maliyyə sisteminin sabitliyinin dəstəklənməsini və s. əhatə edirdi. Bunun üçün xüsusilə kredit və valyuta axınlarının tənzimlənməsinə yönəldilmiş geniş əhatəli tədbirlər istifadə olunurdu. Məsələn, 2008-ci ildə qlobal böhranın başlanmasından sonrakı bir il ərzində AMB, təkrar maliyyələşdirmə dərəcəsini və açıq bazarda əməliyyatlar üzrə aşağı salınma istiqamətində faiz dəhlizin sərhədlərini altı dəfə dəyişmişdir.

Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı əsasən dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə bağlı olmuşdur. Belə ki, özəlləşdirmə prosesində qiymətli kağız olan özəlləşdirmə çekləri və özəlləşdirmə opsionları buraxılmış, orta və iri dövlət müəssisələri isə açıq tipli səhmdar cəmiyyətlərinə çevrilərək özəlləşdirilmişlər. 1996-2013-cü illərdə dövlət müəssisələri bazasında yaradılmış səhmdar cəmiyyətlərinin cəmi sayı 1599 olmuşdur ki, bu da ölkədə yaradımış səhmdar cəmiyyətlərinin əsas hissəsini təşkil edir. Belə səhmdar cəmiyyətlərinin təqribən 60,4 faizi birinci özəlləşdirmə proqramı çərçivəsində, yəni 1995-1998-ci illər ərzində yaradılmışdır.

2013-cü ildə ölkənin qiymətli kağızlar bazarında dövriyyənin həcmi 2010-cu ilə nisbətən 3,8 dəfə artmışdır. Bununla belə, bu artım əsasən dövlət qiymətli kağızları hesabına baş vermişdir. Aparılmış təhlil göstərir ki, ölkədə qiymətli kağızlar bazarının formalaşmasında inzibati amillər əsas rol oynayır. Bu amillərə dövlət əmlakının özəlləşdirilməsi ilə yanaşı, kommersiya bankları və sığorta təşkilatlarının ni-

zamnamə kapitallarının minimum həcminin artırılması, İpoteka Fondu istiqrazlarının buraxılması aiddir.

Maliyyə axınlarının strukturunda önəmli yerlərdən birini əhəmiyyəti getdikcə artmaqda olan, böyük maliyyə resurslarının təmərküzləşdiyi sığorta şirkətlərinin maliyyəsinin hərəkəti əldə edir. Sığorta şirkətinin maliyyə axınları sığorta, investisiya, idarəetmə və fond təminatlı axınlar kimi təsnifatlaşdırılır. Təsnifatın əsasında funksional əlamət durur, yəni o, sığorta təşkilatı çərçivəsində həlledici funksiyaların ayrılması yolu ilə formalaşdırılır, bunun nəticəsində isə bu və ya digər maliyyə axınları formalaşır.

Azərbaycan sığortaçılarının investisiya fəaliyyətinin nəticələrinin ümumi müsbət dinamikası fonunda sığorta şirkətləri tərəfindən ölkə iqtisadiyyatına investisiya yatırılması qarşısında duran əsas maneələr müəyyən edilmişdir. Bunlar həyat sığortası bazarının inkişaf etməməsi, ölkə sığorta şirkətlərinin kifayət qədər kapitallaşmaması, sığorta bazarının liderləri ilə kiçik sığortaçılar arasında aktivlərin idarə edilməsi keyfiyyətində böyük fərq və s. Son iki ildə Azərbaycanda sığorta bazarının həcmi sürətlə genişlənir. Sığorta ödənişlərinin ÜDM-dəki həcmi 2004-cü ildəki 0,4%-dən 0.71 %-ə qədər artmışdır. Sığorta şirkətlərinin cəmi kapitalı 2014-cü ilin əvvəlinə 8.9 dəfə artaraq 463 mln manata çatmışdır. Sığorta bazarının mənfəəti isə bu müddətdə 9 dəfə artaraq 84 mln dollar olmuşdur. Hazırda, Azərbaycan üzrə bütövlükdə potensial risklərin 10%-dən azı sığortalanır, halbuki inkişaf etmiş ölkələrin əksəriyyətində bu pay 90-95% təşkil edir.

Azərbaycan iqtisadiyyatının transformasiyası dövründə maliyyə axınlarının ən çox dəyişikliklərə məruz qaldığı sahə sosial sfera olmuşdur. Əsaslı islahatlar şəraitində, sosial sferanın büdcəsi, kreditləşdirilməsi sistemi, müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin sahələrarası əlaqələri ilə bağlı olan maliyyə axınlarının miqyası və istiqamətlənməsində ciddi dəyişikliklər baş vermişdir. Sosial sferanın cəmiyyətin həyatında oynadığı rolu aşağıdakı göstəricilər dolğun ifadə edir: bütövlükdə ölkə əhalisinin həyat fəaliyyətinin təminatı ilə bağlı olan ehtiyaclarına ÜDM-in böyük hissəsi istifadə olunur. 2013-cü ildə son istehlaka ÜDM-in 53,5 %-i istifadə olunmuşdur. Eyni zamanda, sosial sferanın çoxsaylı sahələri 2013-cü ildə 17.5 mlrd manat məbləğində müxtəlif xidmətlər istehsal etmişlər, bu da ÜDM-in təxminən 30%-ni təşkil edir. Bu sahədəki maliyyə axınlarının ən kütləvisinə əhalinin istehlak bazarının axınlarını aid etmək lazımdır. Onların

yaradılması və fəaliyyət göstərməsində, praktiki olaraq, ölkənin bütün əhalisi iştirak edir. Bir tərəfdən, bu axınlara əhalinin müxtəlif fəaliyyət növlərindən gəlirləri qatılır, digər tərəfdən isə – bu maliyyə resursları müxtəlif növ ödəmələr, istehlak bazarında gündəlik həyata keçirilən istehlak malları və xidmətlərinə görə hesablaşmalar üçün istifadə olunur.

Əhalinin gəlirlərinin araşdırılması göstərir ki, 2013-cü ildə əhalinin gəlirlərinin strukturunda əməkhaqqının gəlirlərin ümumi məbləğinin 25,8% təşkil etmişdir., halbuki 1990-cı illərin əvvəllərindəki bazar iqtisadiyyatına keçid zamanı bu göstərici təxminən 75%-ə çatırdı. Həmçinin sosial xarakterli ödəmələrin – pensiyaların, müavinətlərin, təqaüdlərin və digər sosial transfertlərin payı da əhəmiyyətsiz olmuşdur (16,8%). Əhalinin pul gəlirlərinin yarısından çoxunu – 63.5% sahibkarlıqdan gəlirlər təşkil edir. Eləcə də mülkiyyətdən gəlirlərin olduqca kiçik faizi – 1,2% diqqəti cəlb edir. Əhalinin xərclərinin strukturunda böyük yeri əmtəələrin satınalmaları və xidmətlərin ödənilməsi (son istehlak xərcləri) – 86,5% (bazar islahatlarının başlanmasından öncə - 75%) tutur. Xərclərin əhəmiyyətinə görə ikinci maddəsi – mənzil-kommunal xidmətlərinin göstərilməsinə görə icbari ödənişlər və müxtəlif vergilər təşkil edir.

## 4.Büdcə siyasətinin formalaşması xüsusiyyətləri və problemləri

Müasir şəraitdə dövlət büdcəsi – yalnız vahid maliyyə planlaşdırması və proqnozlaşdırmasını təmin edən, milli maliyyə təsərrüfatını formalaşdıran təməl deyil, həmçinin ölkədə iqtisadi artımı təmin edən ən mühüm alətlərdən biridir. Bununla əlaqədar büdcənin funksiyaları, mahiyyəti və ölkənin iqtisadi həyatındakı rolu dəyişir. Büdcənin iqtisadi məzmunu – ümumdövlət ehtiyacları, eləcə də bütövlükdə, ölkə çərçivəsində rəqabətli bazar tarazlığı sisteminin sabitliyini təmin edən, iqtisadi proseslərin hamarlanması məqsədlərinə sərf edilən, ilkin təsərrüfat halqasında yaradılmış gəlirlərin yenidən bölgüsünün məqsədyönlü mərkəzləşdirilməsi prosesində reallaşır. Bu zaman, dövlət büdcəsinin əsas funksiyalarından biri olan tənzimləyici rolu mühüm əhəmiyyət kəsb edir. Büdcənin tənzimləyici funksiyasının məzmunu büdcə prosesinin bütün mərhələlərində büdcə sisteminin müxtəlif səviyyələrinin gəlir mənbələrinin formalaşdırılması, makroiqtisadi sabitliyin təmin edilməsi və ictimai təkrar istehsalın artımına yönəlmiş iqtisadi siyasətinin həyata keçirilməsi prosesində reallaşır.

Azərbaycan Respublikasında dövlət maliyyəsinin əsas axınları, qeyd olunduğu kimi, dövlət büdcəsində əks olunur. Bütün hallarda dövlətin icmal büdcədəki gəlirləri və xərclərinin ümumi məbləği üzrə ümumiləşdirilmiş məlumatlara malik olmaq dövlət üçün olduqca vacibdir. Bu həm beynəlxalq müqayisələr üçün, həmçinin ölkənin maliyyə vəziyyətinin ümumi qiymətləndirilməsi, sərəncamda olan maliyyə resurslarının istifadəsinin strateji istiqamətlərinin müəyyənləşdirilməsi üçün zəruridir.

Son illərdə Azərbaycanın dövlət büdcəsinin milli iqtisadiyyatda rolu artmışdır. Belə ki, büdcə gəlirlərinin ÜDM-də payı 2000-ci ildə 15,1 % olduğu halda, 2014-cü ildə onun xüsusi çəkisi 35,3 % təşkil etmişdir. Ölkədə 2013-cü ildə ÜDM-in deflyatoru 2000-ci ilə nisbətən 2,7-yə bərabər olduğu halda, büdcə gəlirləri 22 dəfə artmışdır və bu artım davam etməkdədir. Belə şəraitdə potensialın qiymətləndirilməsi baxımından , dövlət büdcəsi gəlirlərinin formalaşmasının təhlilinin əhəmiyyəti artır. Başqa sözlə, gəlirlərin sürətli artımın hansı səbəbdən baş verməsi mühüm əhəmiyyət daşıyır. Araşdırmalar göstərir ki, son illərdə ölkəmizdə dövlət büdcəsi gəlirlərinin ÜDM-ə nisbətinin yüksəlməsi vergi dərəcələrinin artımı və yığım səviyyəsinin yüksəldilməsi hesabına deyil, istehsalın artımı, o cümlədən, ilk növbədə neft gəlirlərinin artımı ilə əlaqədar olmuşdur. Dövlət büdcəsinin gəlirləri 2000-ci ilə nisbətən 2013-cü ildə isə 27.3 dəfə artmışdır. Aydındır ki, belə sürətli artım əsasən neft gəlirləri hesabına təmin edilmişdir. Belə ki, rəsmi məlumatlara əsasən, 2000-ci büdcə gəlirlərinin tərkibində neft gəlirləri cəmisi 29,6% təşkil edirdisə, 2006-cı ildə artıq büdcə gəlirlərinin yarıdan çoxu -60%-ə yaxın hissəsi neft gəlirlərinin payına düşürdü. Ölkədə böyük neft gəlirlərinin daxil olması sürətləndikcə, dövlət büdcəsi gəlirlərinin strukturunda onun parı təbii olaraq artmağa davam edir. Digər tərəfdən isə gəlirlərin investisiyaya yönəldilməsi təbii olaraq dövlət xərclərini artırırdı.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu illərdə büdcədə neft gəlirlərinin onun qeyri-neft gəlirlərinin formalaşmasına da ciddi təsir etmişdir. Belə ki, büdcənin böyük həcmli gəlirlərinin xərclənməsi nəticəsində vəsaitlərin bir hissəsi, qeyri-neft sektorunun büdcə ödəmələri kimi büdcəyə geri qayıdır. Bu baxımdan, təqribi qiymətləndirmələrə görə faktiki olaraq , büdcə gəlirlərinin son illərdə təqribən 70-80 faizə yaxın hissəsinin neft gəlirləri hesabına formalaşdığını təxmin etmək olar.

Qrafik 1.**Dövlət büdcəsi gəlirlərinin strukturu**




Dövlət büdcəsinin xərcləri 2000-ci ilə nisbətən 2013-cü ildə təxminən 26 dəfə artmış, xərclərin ÜDM-ə nisbəti 16,2 %-dən 33,2 %-ə qədər artmışdır. Göründüyü kimi, dövlət büdcəsinin milli iqtisadiyyatda rolu artmaqdadır. Bununla belə bu göstərici əksər inkişaf etmiş ölkələrdən aşağıdır. Məsələn, 2011-ci ildə avro zonasında dövlət büdcəsinin xərcləri ÜDM-in 49,4,o cümlədən, araşdırmalar göstərir ki, 2013-cü ildə Azərbaycanda dövlət büdcəsinin xərclərinin 48.2 faizi əsaslı xərclərin payına düşmüşdür ki, bu da 2000-ci ilə nisbətən 41.5 faiz bəndi çoxdur. Bu göstəricinin obyektiv qiymətləndirilməsi fikrimizcə çox vacibdir. Belə ki, hazırda adambaşına düşən əsas fondların dəyərinə görə Azərbaycan inkişaf etmiş ölkələrdən dəfələrlə geri qalır. Buna görə də, ölkədə istehsalın həcminin artırılması və əmək məhsuldarlığı səviyyəsinin yüksəldilməsi üçün qənaət normasının yüksək olması və bu qənaətin ölkə daxilində əsas fondların yaradılmasına yönəldilməsi zəruridir. Milli qənaətin əsas hissəsinin dövlətin sərəncamında olması büdcənin əsaslı xərclərinin artırılmasına şərait yaratmışdır. Bununla belə, inkişaf etmiş ölkələrdə dövlət büdcəsinin xərclərinin əsas hissəsini cari xərclər təşkil edir və investisiya xərcləri dövlət büdcəsinin xərclərinin 10 faizindən azdır. Büdcə siyasətinin makroiqtisadi parametrlərə təsirinin qiymətləndirərkən nəzərə almaq vacibdir ki, büdcə siyasəti və bütövlükdə fiskal siyasət, ölkədə iqtisadi parametrlərə həm qısa, həm də uzunmüddətli dövrdə təsir göstərir. Məcmu tələbin tərəddüdlərinin baş verdiyi iqtisadiyyatda monetar siyasətlə yanaşı, fiskal siyasət də belə tərəddüdləri azaltma potensialına malikdir. Bu təsir əsasən qısamüddətli dövrü əhatə edir. Belə ki, iqtisadi durğunluq dövründə stimullaşdırıcı fiskal siyasət iqtisadi artım üçün əlverişli şərait yaradır. Xüsusilə, vergi-

lərin azaldılmasına nisbətən dövlət satınalmalarının həcminin artırılması tələbə daha güclü təsir göstərir. Bununla yanaşı, fiskal siyasət iqtisadi artıma uzunmüddətli təsir imkanlarına malikdir. Bu büdcə xərclərinin istiqamətləri ilə əlaqədardır. Dövlətin iqtisadi artımı stimullaşdırması üçün dövlət bücəsinin xərclərində əsaslı xərclərin payının artırılmasının mühüm əhəmiyyəti vardır.

Son illərdə Azərbaycanda tələbin həcminin formalaşmasında dövlət büdcəsinin xərclərinin rolu artmış və nəticədə tələb tərəfdən dövlət büdcəsinin iqtisadi artımda rolu yüksəlmişdir. Bununla yanaşı, büdcə gəlirlərinin dinamikası və strukturu onun iqtisadi parametrlərə təsirinin məhdud olduğunu göstərir. Belə ki, Azərbaycanda qeyri-neft ÜDM-nin artımı ilə vergi gəlirlərinin artımı arasında əlaqə adekvat deyildir . Belə hal ölkədə dövlət büdcəsinin məhdud stabilləşdirici rola malik oluduğunu göstərir. Dövlət büdcəsi xərclərinin makroiqtisadi tarazlığa təsiri adətən iki istiqamətdə baş verir: büdcə kəsrinin artması və fiskal zərbələr. Azərbaycanda son illərdə neft gəlirlərinin artması icmal büdcənin müsbət profisitinin yaranmasına səbəb olmuşdur. Belə hal dövlət xərclərinin maliyyələşdirilməsində gərginliyi azaltmış və büdcə siyasətində qeyri-məhsuldar infrasrtukur xərclərinin maliyyələşdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Qeyd edilənlərlə yanaşı, büdcə xərclərinin artmasının doğurduğu tələb hesabına yaranan fiskal zərbələrin makroiqtisadi parametrlərə təsiri böyükdür. Bu amil, ilk növbədə, iqtisadi artımın sürətinə təsir göstərmişdir. Dövlət büdcəsinin daxili tələbin həcmində payı 2000-ci ildə 15,4 faizdən 2013-cü ildə 40,4 faizə qədər artmışdır. Bu artım əsasən əsaslı xərclərin hesabına baş vermişdir. Belə ki, qeyd edilən dövrdə dövlət büdcəsinin ümumi yığımda payı 7,0 faizdən 79,8 faizə qədər artdığı halda, son istehlak xərclərində payı nisbətən az, 17,6 faizdən 29,2 faizə qədər yüksəlmişdir. Belə hal dövlət büdcəsinin istehlak qiymtləri indeksinə təsirini məhdudlaşdırmışdır.

2001-2013-cü illərdə qeyri-neft ÜDM-i, qeyri-neft idxalı, daxili tələbin və dövlət büdcəsinin xərclərinin trayektoriyaları eyni meyilliliyə malik olmuşlar. Belə hal bu göstəricilər arasında ciddi əlaqənin olduğunu göstərir. 2001-ci ildə ölkədə qeyri-neft məhsullarına olan tələbin təqribən 39,6 faizi, 2011-ci ildə isə təqribən 33,3 faizi idxal hesabına təmin edilmişdir. Belə hal idxal qiymətlərinin daxili qiymətlərin səviyyəsinə təsirini əhəmiyyətli edir.

Qrafik 2. **Daxili tələbin strukturu**




Azərbaycan Respublikasında, büdcə-vergi axınlarının müasir idarəedilməsi təcrübəsinin apardığımız təhlilinin nəticələrinə görə belə ümumiləşdirmə aparmaq olar ki: Büdcə prosesinin nizamlanması üzrə son illərdə qəbul edilmiş tədbirlər kompleksi ölkənin maliyyə vəziyyətinə müsbət təsir göstərmişdir. Lakin, fikrimizcə, büdcə-vergi axınları bütün səviyyələrdə hələ də kifayət qədər səmərəli tənzimlənmir. Maliyyə axınlarının nizamlanması və gücləndirilməsinin əlavə mənbələrinin axtarılması, ən başlıcası isə - maliyyə vəsaitlərinin daha səmərəli istifadəsində məsuliyyətinin artırılması üzrə davamlı fəaliyyətə ehtiyac var.

## 5. Makroiqtisadi tənzimləmə və maliyyə axınlarının iqtisadi inkişafa təsirliyinin artırılması istiqamətləri

Müasir Azərbaycan iqtisadiyyatında mövcud maliyyə axınlarının xarakterik cəhətlərinin qısa icmalından iki başlıca nəticə çıxarmaq olar: birincisi, maliyyə axınların hərəkəti, onların həcmi, istiqaməti, dövriyyəsinin sürəti, bir sıra sosial-iqtisadi amillərdən dövlət iqtisadi idarəetmə sisteminin xarakterindən, mülkiyyət formalarından, müəssisə və təşkilatların təşkili-təsərrüfat formalarından, onların fəaliyyətinin və dövlətlə münasibətlərinin hüquqi mexanizmindən, təsərrüfat strukturlarının iqtisadi təmərküzləşməsi dərəcəsindən asılıdır; ikincisi, müxtəlif maliyyə axınları qarşılıqlı əlaqədə olduğundan bir-birinə ciddi təsir göstərir və axınların potensialını şərtləndirir. Belə vəziyyətdə tələb olunan iqtisadi və sosial effektə nail olma məqsədi, bazar iqtisadiyyatı şəraitində ölkənin vahid maliyyə sistemi çərçivəsində, axınların dövlət tənzimlənməsini obyektiv zərurətə çevirir. Azərbaycanda maliyyə

axınlarının daha yüksək nəticəliliyinin təmin edilməsi, onun idarə olunmasına milli iqtisadiyyatımızın spesifikasını nəzərə alaraq yanaşılmasını aktuallaşdırır. Məsələn, Azərbaycanda dövlət büdcəsi iqtisadiyyatda dövlət bölməsini tam əhatə etmir. Belə ki, formalaşmış struktura görə Azərbaycanda dövlət büdcəsi və hətta icmal büdcə dövlətin maliyyə ili ərzində yaranan bütün gəlirlərini əhatə etmir. Bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da, mahiyyət etibarı ilə büdcə, dövlətin ictimai xidmətlərin təşkilatçısı kimi funksiyalarının maliyyə mənbəyi rolunu oynayır. Ona görə də büdcədə dövlətin iri mülkiyyətçi kimi gəlirləri akkumliyasiya olunmur. Belə yanaşmanın müsbət və mənfi hesab edilə biləcək məqamları vardır. Mənfi hesab edilə biləcək məqamlara, Dövlət büdcəsinin tənzilmləyici funksiyasının daralması, iqtisadi siyasətin bütövlüyü və tamlığının zəifləməsi və s. aid edilə bilər. Məsələn, Azərbaycanın toplu maliyyə balansının təhlili göstərir ki, son illərdə ölkəmizdə yaranan məcmu maliyyə gəlirlərinin strukturunda icmal büdcənin xüsusi çəkisi azalmaqdadır. 2011-ci ildə 49,8%, 2012-ci ildə 46,7%,2013-cü ildə 45,8% olmaqla 2014-cü ildə 46,5% səviyyəsində proqnozlaşdırılır. Azərbaycan son illərdə müşahidə olunan iqtisadi siyasətdə, hətta ən mühüm sosial məqsədlərin realizasiyasında dövlət büdcəsindən kənar dövlət vəsaitlərinin istifadəsi təcrübəsi geniş yayılmaqdadır. Doğrudur, ölkəmizdə tətbiq edilən icmal büdcədə həmin axınlar nəzərə alınır. Lakin bizim qanunvericilikdə icmal büdcə bütövlükdə informasiya xarakteri daşıyır, direktiv sənədə çevrilmir.

Təcrübə göstərir ki, əsas maliyyə axınları dövlətin siyasi və sosial-iqtisadi vəzifələri ilə funksiyalarının həyata keçirilməsinin maliyyə təminatı üçün nəzərdə tutulmuş pul vəsaitləri fondunun yaranması və xərclənməsinin əsas forması olan dövlət büdcəsi ilə bağlıdır. Ona görə də hesab edirik ki, Azərbaycanda dövlət büdcəsinin fəal tənzimləyici rolunun genişləndirilməsinə böyük ehtiyac vardır. Azərbaycan iqtisadiyyatının son illərdəki sürətli inkişafının yaratdığı güclənən maliyyə axınlarının xarakterinin təhlili onu deməyə əsas verir ki, ölkəmizin iqtisadi inkişafının bu mərhələsində əsas lokomativ rolunu iqtisadiyyatın real sektoru oynamışdır. Doğrudur, bu dövrdə aparılmış maliyyə siyasəti inkişafın təmin edilməsində real sektorun mühüm dəstəkləyicisi olmuşdur. Lakin dünya iqtisadiyyatında baş verən son qlobal dəyişikliklər göstərir ki, indiki mərhələdə davamlı inkişafı təmin etməyə hədəflənən ölkələr iqtisadi inkişafda real və maliyyə sektorunun vəhdətini təmin etməyə çalışmalıdır. Azərbaycanda isə bu məsələ,

hesab edirik ki, iqtisadiyyatda qeyri-neft sektorunun üstün inkişafının təmin edilməsi və bu məqsədlə dövlətin maliyyə resurslarının intensiv istifadəsi, maliyyə axınlarının idarə edilməsində tarazlıq və çevikliyin təmin edilməsi ilə həll oluna bilər. Bu baxımdan fikrimizcə, büdcə quruculuğunda nəticəyə hədəflənmiş büdcə modelinin tətbiqi əsas vəzifəyə çevrilməlidir.

Araşdırmalar bu istiqamətdə aşağıdakıları zəruri edir:

- İcmal büdcə və Dövlət büdcəsinin dövlətin bütün aktivlərini əhatə etməsi və onların formalaşdırılması və istifadəsində yanaşmanın eyniliyinin təmin edilməsi; İcmal büdcənin direktiv iqtisadi siyasət vasitəsi statusunun hüquqi-normativ müstəvidə təsbit edilməsi və realizasiyası;
- Maliyyə axınlarının müxtəlif kanallarının maraqlarının təmin olunması üçün iqtisadi siyasətdə zəruri tədbirlərin nəzərə alınması, məsələn, monetar və fiskal siyasətin üzvü əlaqələndirilməsi, o cümlədən pul-kredit siyasəti və valyuta ehtiyatlarının idarə olunmasında qərarların qəbulunun sahəvi deyil, ümum ölkə maraqlarından aparılması;
- Dövlət xərclərinin planlaşdırılmasında prioritetliyin funksional və sahəvi baxımdan təmin edilməsi, xərclərin dünya təcrübəsinə müvafiq səmərəliliyi və nəticəliliyinin əsas meyarlara çevirilməsi;
- Maliyyə axınlarının idarə olunmasına yanaşmaların müəyyən edilməsində sahəvi və cari maraqlara yox, strateji maraqlar və davamlı iqtisadi inkişafın təhlükəsizliyinin təmin edilməsi meyarlarına hədəflənmənin həyata keçirilməsi və s.

Beləliklə, araşdırmalar göstərir ki, açıq iqtisadiyyat şəraitində Azərbaycanda güclənən maliyyə axınlarının daha səmərəli istifadə olunması baxımından ən mühüm istiqamətlərdən biri büdcə siyasətinin və o cümlədən büdcə quruculuğunun təkmilləşdırılməsi hesab edilməlidir. Azərbaycanda son illərdə həyata keçirilən makroiqtisadi siyasətin ümumi xarakterini lakonik olaraq, tələbin artımı şəraitində makroiqtisadi sabitliyin və dayanıqlı, sürətli inkişafın təmin edilməsi kimi dəyərləndirmək olar. Son on ildə, hökumətin məqsədyönlü siyasəti nəticəsində büdcə xərclərinin artırılması iqtisadi dövriyyədə tələbin böyüməsinə gətirmişdir. Mahiyyət etibarı ilə müsbət xarakterli bu nəticə inkişafın davamlılığını yüksəltsə də bir sıra neqativ proseslər üçün əlverişli imkanlar yaradır. Məsələn tələbin artması, adətən inflyasiya təzyiqlərinin çoxalmasına səbəb olur, daxili bazarda idxalın mövqeyini

gücləndirir və s. Ona görə də makroiqtisadi tənzimləmədə fiskal və monetar orqanların fəaliyyət planında bu amilə diqqətin yüksəldilməsi zərurətə çevirilir. Bütövlükdə, son illərdə dövlət büdcəsinin iqtisadi artıma təsiri yüksəlmişdir. Belə ki, büdcə xərclərinin artması daxili tələbin həcminə, büdcədən maliyyələşən investisiya qoyuluşlarının artması isə məhsul və xidmətlər istehsal edən istehsal güclərinin genişlənməsinə müsbət təsir göstərmişdir.

Dövlət büdcəsinin tənzimləyici rolunun mühüm bir xüsusiyyətidə büdcə gəlirlərinin mənbəələrinə olan selektiv seçimlə bağlıdır. Məsələn, son on ildə dövlət büdcəsinin gəlirlərinin dəfələrlə artmasına baxmayaraq, ölkədə vergi yükünün səviyyəsi demək olar ki, stabil qalmışdır. Bir sıra sahələrdə artıq 20 ilə yaxın davam edən vergi güzəştləri və stimullaşdırıcı tədbirləri davam etməkdədir (məsələn, kənd təsərrüfatı sahəsini, bank fəaliyyətinin bəzi hissələri, məsələn, dvidentlərin vergilərə cəlb edilməsi və s.). Eyni zamanda nəzərə almaq vacibdir ki, hökumət büdcənin borc yükünü də artırmağıda məqsədəuyğun hesab etmir. Bu məqam da, fikrimizcə önəmli hesab edilməlidir, çünki dünya təcrübəsində borc yükünün artmasının ciddi mənfi təsirləri olması dəfələrlə sübut olunmuşdur.

Aparılmış tədqiqatlar göstərir ki, dünya təcrübəsində milli iqtisadi sistemlərin əksəriyyətində makroiqtisadi tənzimləmədə monetar oqrqanların rolu həlledici olaraq qalmaqdadır. Azərbaycanda da bu belədir. Yaranmış şəraitin əsas səbəbi fikrimizcə, monetar təzimləmənin həyata keçirilməsinin zaman və xərc baxımından daha üstün olması ilə bağlıdır. Monetar tənzimləmənin bir sıra üsulları isə tətbiq baxımından daha asandır. Məsələn, geniş yayılmış inflyasiya targetlənməsi və açıq bazarda əməliyyatlar kimi yanaşmalar makroiqtisadi stabilliyin təmin edilməsinə daha tez təsir edir, nəinki uçot dərəcəsinin tənzimlənməsi. Azərbaycan Mərkəzi Bankı da son illərdə inflyasiyanın məhdudlaşdırılması istiqamətində tədbirlərə önəm verməkdədir. Bütövlükdə, araşdırmalar göstərir ki, son illərdə ölkədə faiz dərəcəsində ciddi dəyişikliklər baş verməmiş və nominal faiz dərəcəsinə inflyasiyanın təsiri çox məhdud olmuşdur. Bununla yanaşı, məcmu qənaətin və investisiyanın mövcud həcminə görə faiz dərəcələrinin səviyyəsi yüksək olaraq qalmaqdadır. Fikrimizcə, Mərkəzi Bankın ölkədə formalaşan faiz dərəcəsinə təsir alətlərindən biri olan uçot dərəcəsindən geniş istifadə etməsi məqsədəuyğundur. Araşdırmalar göstərir ki, fiskal siyasətin formalaşdırılmasında makroiqtisadi tarazlıq məsələlərinin, monetar

siyasətin formalaşmasında isə iqtisadi artımın təmin olunmasının nəzərə alınmasının mühüm əhəmiyyəti vardır.

Beləliklə, aparılmış sübut edir ki, Azərbaycanda son illərdə iqtisadi siyasətin formalaşmasında nəzəriyyə və dünya təcrübəsinin dərsləri əsasən nəzərə alınır. Bunun nəticəsi olaraq, ölkəmizdə iqtisadi siyasətdə milli maraqların nəzərə alınması, davamlı inkişafın təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsinin inkişafın kompleksliliyinin gücləndirilməsinə istiqamətləndirilməsi, dünya iqtisadiyyatında baş verən böhranlara qarşı dayanıqlı təsir mexanizminin formalaşdırılması və s. kimi mühüm fundamental meyillərin yaranması qeyd edilməlidir. İqtisadi inkişafımızın müasir müsbət xüsusiyyətlərinin yaranması və dərinləşməsini şərtləndirən amillər sırasında isə ən mühümlərindən biri makroiqtisadi tənzimləmədə maliyyə axınmlarını idarə edilməsində"funksional maliyyə" yanaşmasının əsasən təsbit edilməsi hesab edilməlidir.

Dissertasiya mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:

1. Milli valyuta strategiyalarının formalaşmasında beynəlxalq valyuta sistemlərinin rolu ."Gənc Alim. I Resp. İnnovativ İdeya Yarmarkası", Bakı, 2010 il, səh. 314-316
2. Qloballaşma şəraitində iqtisadiyyatın idarə edilməsində informasiyanın rolu və informasiya iqtisadiyyatının xüsusiyyətləri ("İnformasiya Cəmiyyəti Problemləri" elmi-praktiki jurnal, Bakı №1 2010, səh. 32-40
3. Valyuta münasibətləri və mexanizmi: alətləri və formaları ("GəncAlimlərin I Elm Festivalı" Mat-rı, Bakı 2011-ci il, səh. 115-120
4. Büdcə - maliyyə siyasətinin tənzimləyici rolu . Doktorantların və gənc tədqiqatçıların XVI Resp. elmi konf. Mat, Bakı 2012, səh.248-251 .
5. Regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. "Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası" konfransının materialları II cild, Bakı şəhəri, 25-27 iyul 2012-ci il, səh. 97-105
6. Maliyyə axınları və büdcə prosesinin idarə olunması dünya təcrübsəi "Qloballaşan dünyada biznesin idarə edilməsi və Korporativ Sosial Məsuliyyət", Bakı, 23-25 Noyabr 2012-ci il, səh. 559-564
7. Milli maraqlar və marjinal faydalılıq: büdcə siyasəti "Dünya iqtisadiyyatının inkişaf paradiqması: Bazar və Sonrası" mövzusunda 1 Avroasiya sosial elmlər forumu mat. Bakı 2013, səh. 239-244
8. Структура и характер финансовых потоков в экономике Азербайджанской Республики, "ЭКОНОМИКА" Национальная

Академия Наук Кыргызской Республики, Институт Экономика имени Академика Дж. Алышбаева, Бишкек 2013, ст. 22-42
9. Financial flows as an economic category .Gənc Alimlərin Beynəlxalq Bakı Forumu, Bakı şəhəri, 20-25 may 2013-cü il, səh. 342-344
10. Nəticəyə hədəflənmiş büdcələmə və maliyyə axınlarının idarə olunması. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfrasının Materialları, I cild, Bakı şəhəri, 2013-cü il,səh. 220-222
11. Характер взаимообусловленности экономического развития и усиления финансовых потоков в Азербайджане "Экономика и финансы" научно - практ. журнал, Узбекистан 2014, ст. 16-23 .
12 Azərbaycan iqtisadiyyatında davamlı inkişaf potensialının formalaşması xüsus-ləri. ADİU Elmi Xəbərləri № 3, 2014 il s151-161.

**Гасанлы Амал Расим оглы**

**"Проблемы применения концепции функциональных финансов в макроэкономическом регулирования"**

## РЕЗЮМЕ

В диссертационной работе исследуются вопросы применения концепции функциональных финансов в макроэкономическом регулирования.

Во введении раскрывается актуальность темы, состояния изученности проблемы, цели и задачи исследования, научные новизна полученных результатов теоретические и практические значимости диссертационной работы.

Первая глава диссертации называется- "Теоретико-методологические основы макроэкономического регулирования и управления финансовых ресурсов" В данной главе излагается, сущность и особенности подходов к госрегулирования. Идентифицируются финансовые потоки и оценивется критерия их управления с призмы результативности. Исследуется задачи макроэкономического регулирования и управления финансовыми потоками в обеспечении национальной экономической безопасности.

Во второй главе диссертации "Идентификация и классификация финансовых потоков в Азербайджанской экономике", исследуются особенности формирования потенциала устойчивого развития, анализируются критерии рациональности и цели в управлении финансовых потоков. Изучается также, особенности и проблемы согласование целей развития, эффективности и результативности в бюджетной политике. Доказывается целесообразности применения концепции результата ориентированного бюджета в Азербайджанской экономике.

Третья глава диссертационной работы называется "Особенности применения концепции функциональных финансов в Азербайджане". Здесь описываются результаты исследования усиления влияния финансовых потоков на экономические развития. Обосновывается целесообразности применения подхода функциональных финансов и предлогается научно обоснованные

предложения по задачам механизма макроэкономического регулирования по усилению роста экономического развития.

**Hasanli Amal Rasim**

**“Problems of macroeconomic application of functional finance conception”**

## SUMMARY

The issues of application functional finance conception in macroeconomic regulation are investigated in the dissertation. The main goal of the dissertation is evaluating rapidly growing financial flows, together with resources of state budget in the context of the national economic development purposes and defining ways of improving its effeciency.

Dissetation consists of an introduction, three chapters, summary and suggestions, and the list of the literature used.

The first chapter of the dissertation is named “Macroeconomic regulation and theoritical-metodologic essence of controlling financial resources”. In this chapter quintessence and features of existing approaches to economic regulation are stated. Identification and controlling criterions of financial flows are assessed in terms of effectiveness. The duties of macroeconomic regulation and financial flows’ steering in ensuring national economic security are investigated.

The second chapter of the dissertation is called “Identification and classification financial flows in modern Azerbaijan economy”. In this chapter, specialties of shaping sustainable development potential in Azerbaijan economy are analyzed. The issues stipulate selection of rationality standards and goals in conducting financial flows are studied. Furthermore, features and problems of coordinating development, efficiency and effectiveness purposes in budget policy are investigated and application of outcome targeted budget concept in Azerbaijan economy is appreciated advisable.

The third chapter of the dissertation is called “Duties and features of application of functional finance concept in Azerbaijan”. In the chapter, the directions of enhancing influence of financial flows on economic development in recent years in Azerbaijan are studied and application of “functional finance” approach in governing financial flows is substantiated. Responsibilities and mechanism of coordinating fiscal and monetary policies in economic policy are analyzed and well-

founded offers proposed relating to duties and perspectives of macroeconomic regulation mechanism to accelerate economic policy.

*Kağız formatı 60*84 1/16*
*Həcmi 1,5 ç.v. Sayı 100*

*"İqtisad Universiteti" Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyat küçəsi, 6*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРИСТИТЕТ**

*На правах рукописи*

**ГАСАНЛЫ АМАЛ РАСИМ ОГЛУ**

# ПРОБЛЕМЫ ПРИМЕНЕНИЯ КОНЦЕПЦИИ ФУНКЦИОНАЛЬНЫХ ФИНАНСОВ В МАКРОЭКОНОМИЧЕСКОМ РЕГУЛИРОВАНИЯ

**Специальность: 5308.01 Общая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени
доктора философии по экономике**

**Б А К У – 2015**